Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

# KİVDF

www.kivdf.gov.az

Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

Azərbaycanda yəhudilərə və digər dini azlıqların nümayəndələrinə münasibətdə həyata keçirilən multkulturalizm və tolerantlıq siyasəti "İsrailin səsi" dövlət radiostansiyasının da diqqət mərkəzindədir. Belə ki, bu ilin fevral ayının 12-də "İsrailin səsi" dövlət radiostansiyasının ölkə sakinləri arasında çox populyar olan "Günün aktual hadisələri" adlı səhər verilişi ölkəmizdəki tolerantlığa həsr edilib. Veriliş İsrailin Akko şəhərinin meri Şimon Lankrinin Azərbaycana səfərinin yekunlarına həsr edilib. Bununla bağlı "İsrailin səsi" radiostansiyasının beynəlxalq münasibətlər sahəsi üzrə tanınmış ekspert, "The Hill" qəzetində ölkəmizə həsr edilən və Qərbdə böyük maraq doğuran "Azərbaycan tolerantlıq və multikulturalizm ölkəsidir" sərlövhəli məqalənin müəllifi Arye Qut verilişdəki çıxışında qeyd edib ki, strateji xarakter daşıyan Azərbaycan-İsrail münasibətləri hər iki ölkə və onların xalqları üçün çox əhəmiyyətlidir. Arye Qut: "İsrail dünya bazarında Azərbaycan neftinin əsas alıcılarından biridir. İsrail dövləti Azərbaycanın mühüm strateji tərəfdaşı olub onu neft-qaz, telekommunikasiya və kənd təsərrüfatı sahələrində ən qabaqcıl texnologiyalarla təchiz edir. İsrailin Akko şəhərinin meri Şimon Lankri iki həftə bundan əvvəl Azərbaycanda səfərdə olub. Qeyd edək ki, Azərbaycan Respublikası ilə İsrail dövləti arasında diplomatik münasibətlərin tarixində ilk dəfədir ki, İsrail şəhərinin meri Odlar Yurduna səfər edib", -deyib.

## "Prezident İlham Əliyev dünyada yəhudilər üçün sinaqoq tikən yeganə dövlət başçısıdır"



### Akko şəhərinin meri Şimon Lankrini Azərbaycana səfəri

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin və Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəvəti ilə təşkil olunmuş səfər çərçivəsində Akko şəhərinin meri Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin rəhbəri professor Əli Həsənov, millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri, akademik Kamal Abdullayev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Azərbaycan Milli Məclisi sədrinin birinci müavini Ziyafət Əsgərov və digərləri tərəfindən yüksək səviyyədə qəbul ediliblər. Şimon Lankri iki ölkə arasında dost, mehriban münasibətlərdə mühüm rol oynayan Heydər Əliyevin İsraildə çox sevildiyini söyləyib. O, meri olduğu Akko şəhərində İsrail dövləti ilə Azərbaycan Respublikası arasında indiki strateji tərəfdaşlığın nizamlanmasında və möhkəmlənməsində həlledici rol oynamış Heydər Əliyevin adını daşıyan Azərbaycan Evi yaradılmasının hər iki ölkənin milli maraqlarına cavab verəcəyini vurğulayıb. Akko şəhərinin meri Şimon Lankri: 'Heydər Əliyev adına Azərbaycan Evinin İsraildə əslən Azərbaycandan olan sakinlərin ən böyük icmasının yaşadığı qədim və multikultural Akko şəhərinin ayrılmaz və müasir rəmzinə çevrilməsi üçün əlimdən gələni edəcəyəm".

O, bu müstəvidə də "Tikvateynu - bizim ümid yerimiz" adlı İrs Evinin və Heydər Əliyev adına Azərbaycan Evinin yeni, çoxfunksiyalı və abad binalarının tikintisi üçün bir milyon dollardan artıq vəsait ayırdığını xüsusi qeyd edib.

Bununla bağlı verilişdə Azərbaycanın yəhudilər üçün ikinci vətən olduğunu bir daha xüsusi vurğulayan Arye Qut həmçinin dinləyicilərə Azərbaycanın indiki iqtisadi və siyasi durumu, erməni işğalı və Xocalı faciəsi barəsində də geniş məlumat verib. O Azərbaycana səfərləri çərçivəsində burada Beynəlxalq Holokost Günü ilə əlaqədar Bakı Slavyan Universitetində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən ən yüksək səviyyədə təşkil olunmuş elmi konfransda iştirak etdiklərini, tədbirdə Avropa Yəhudilərinin Fəlakəti və Azərbaycanın Xocalı şəhərində soyqırımı akti məsələlərini birgə müzakirə etdikləri barədə ətraflı məlumat verib.

Səfər çərçivəsində yəhudilərin yığcam yaşadıqları Qubadakı Qırmızı qəsəbəyə də getdiklərini, 1918-ci ildə bolşevik-erməni silahlı dəstələri tərəfindən Azərbaycan torpağında törədilmiş kütləvi qətllərin qurbanları olmuş on minlərlə azərbaycanlının xatirəsinə ehtiram əlaməti olaraq ucaldılmış Soyqırımı Memorial Kompleksini ziyarət etdiklərini də xatırladıb.

### "Ermənilərin bu vəhşiliyi dünya tarixinə qara ləkə kimi düşəcək"

"İsrailin səsi" radiostansiyasının daimi şərhçisi Qubada ermənilər tərəfindən tarixin ən dəhşətli soyqırımlarından birinin həyata keçirildiyini söyləyib: "Şimon Lankriyə Azərbaycanın tarixinə XX əsrin ən faciəli soyqırımı aktlarından biri kimi daxil olmuş, mindən çox kəndin yandırılması və dağıdılması ilə nəticələnmiş qanlı faciə barədə məlumat verilib. Bu kompleksdə gördüyü mənzərələr onu sarsıdıb. 1918-ci ilin aprel-may aylarında təkcə Quba qəzasında 167 kənd yerlə-yeksan edilib, Quba şəhəri qarətlərə və qəsdən törədilmiş yanğınlara, Quba qəzasının müsəlman əhalisi və qəzanın yəhudi sakinlərinin bir qismi kütləvi qətllərə məruz qalıb. Akko meri Azərbaycan tarixində bu qanlı faciəyə görə hiddətləndiyini bildirib və bu haqda məlumatları dünya birliyinə çatdırmağa çağırıb".

Arye Qut SSRİ dağılan ərəfədə ermənilərin Moskvdakı himayədarlarının yardımı ilə Dağlıq Qarabağı Azərbaycanda ayırmaq üçün günahsız insanları qətlə yetirməklə, terrorçuluqla məşğul olduqlarını söyləyib. SSRİ dağılandan sonra rus hərbçilərinin yardımı ilə Azərbaycana qarşı yeni qanlı cinayətlərə baş vuran ermənilərin bu zaman olduqca qəddar hərəkət etdiyini xüsusi qeyd edən şərhçi belə bir vəhşiliyin dünyada tayı-bərabəri olmadığını bildirib. Arye Qut: "Ermənilər rus hərbçilərin əli və yardımı ilə Xocalıda günahsız insanları vəhşicəsinə qətlə yetirdilər. Bu, orta əsrlərə xas olan bir barbarlıq nümunəsi idi. Ermənilər Xocalıda günahsız insanları körpələri aman verməmədən öldürür, körpə uşaqları süngüyə keçirir və diri-diri odlara atırdılar. Amma sivil dünya bu vəhşilik qarşısında susdu. Sivil dünyamızda belə vəhşiliyi təsəvvür etmək olduqca ağırdır və ermənilərin bu vəhşiliyi dünya tarixinə qara ləkə kimi düşəcək. Rus hərbçilərinin yardımı ilə ermənilər Azərbaycan torpaqlarının işğalını davam etdirdilər. Ermənilərin törətdiyi qanlı təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal edilib, ölkədə orta hesabla hər yeddi sakindən biri qaçqındır. BMT TŞ tərəfindən işğal edilən Azərbaycan torpaqlarının azad edilməsi üçün 4 qətnamə qəbul edilib. Ancaq bunların heç biri yerinə yetirilməyib. Çünkü beynəlxalq səiyyədə ermənləri müdafiə edən, erməni vəhşiliyini, qəddarlığını pərdə arxasından dəstəkləyən dövlətlər var", - deyib.

### "Azərbaycanda heç vaxt antisemitizm olmayıb"

Azərbaycanda tolerantlığın qorunub saxlanılmasını yüksək qiymətləndirən şərhçi buna misal kimi Azərbaycanda işğal edilmiş ərazilərdən kənarda - Bakıda və digər rayonlarda 40 minə yaxın ermənin yaşadığını göstərib. Arye Qut həmçinin qeyd edib ki, ermənilərə qarşı döyüşlərdə Azərbaycanda yaşayan yəhudilər də yaxından iştirak edib və onlardan biri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. "İsrailin səsi" radiosunun şərhçisi həmçinin qeyd edib ki, İsrail 20 minlik yəhudi icmasına səmimi münasibətdə Azərbaycan rəhbərliyinin rolunu yüksək qiymətləndirir. O deyib ki, tarixi fakt ondan ibarətdir ki, Azərbaycanda heç vaxt antisemitizm olmayıb və biz - əslən Azərbaycandan olanlar bu fakta görə qürur duyuruq: "Azərbaycan sivilizasiyalararası dialoqun nümunəsidir. Mən hər dəfə, yorulmadan deyirəm: Mənə ikinci bir ölkə göstərin ki, istər müsəlman ölkəsi olsun, istər xristian ölkəsi, orada Prezidentin himayəsi ilə iki sinaqoq və Cənubi Qafqazda yəhudilər üçün ən böyük təhsil mərkəzi tikilmiş olsun. Azərbaycanda gördüklərinə heyran olduğunu bildirən Şimon-Lankri deyib ki, Azərbaycan Prezidenti İlham Əliyev dünyada yəhudilər üçün sinaqoq tikən yeganə dövlət başçısıdır. Azərbaycan unikal ölkədir, burada tolerantlıq və multikulturalizm ideyalarının inkişafı dövlət səviyyəsində real işlərlə hərtərəfli dəstəklənir. Ş.Lankri Bakı sinaqoqunda Dağ Yəhudiləri İcması qarşısında çıxışında deyib: Mənim fikrimcə, siz ikinci bu cür ölkə və bu cür Prezident tapa bilməzsiniz".

Şərhçi onu da xatırladıb ki, Azərbaycan bir sıra dinlərin və xalqların nümayəndələri üçün həmişə anavətən olub və vətən olaraq qalmaqda davam edir: "Qədim Azərbaycan torpağında iudaizm və İslam, atəşpərəstlik və xristianlıq mövcud olub. Bu diyar bu gün də tolerantlığa və dini dözümlülüyə can atmasını göstərir. Qırmızı Qəsəbə dünyada yəhudilərin yığcam şəkildə yaşadığı yeganə və unikal məkandır. Qırmızı Qəsəbə həqiqi mənada Azərbaycanın fəxridir. Burada yəhudilər və azərbaycanlılar əsrlər boyu doğma qardaş kimi yaşayırlar. Burada onların taleyi də, tarixi də ortaqdır". Arye Qut onu da deyib ki, Azərbaycana nə vaxt səfər etsəniz, özünüz öz evinizdəki kimi hiss edəcəksiniz. Azərbaycan dünyaya nümunə olacaq tolerant ölkədir və burada yəhudiləri çox sevirlər.

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında səhifəni hazırladı:*

Əziz Mustafa